# Ağa Musa Nağıyevin xeyriyyəçilik fəaliyyəti

**Bakı şəhəri uzun və çox qədim bir tarixə malikdir. Onun adına hələ miladdan qabaq yazılmış əsərlərdə rast gəlinir. Bakı şəhərində neft quyularından əl vasitəsilə neft çıxarmaq, şoranlıqlardan duz istehsal etmək, zəfəran becərmək barədə qədim sənədlərdə də qeydlər var.**

**Yunan, ərəb, fars, rus və Avropa səyyahları və alimləri Bakıdan dəvə karvanları ilə tuluqlarda başqa ölkələrə neft daşınmasını öz əsərlərində göstərmişlər.**

Bakı əsrlər boyu şərq, cənub və şimal qonşuları ilə ticarət etmişdir. Bu əlaqə həm karvan yolları, həm də dəniz vasitəsilə olmuşdur. Bakı XIV - XVI əsrlərdə Orta Asiya və Hindistanla geniş ticarət etmişdir. Bakının hərtərəfli inkişafı, onun adının bütün dünyada məşhur olması, əlbəttə XIX əsrin ikinci yarısından, 70-ci illərdən başlayır. Bu da neft sənayesinin inkişafı ilə bağlıdır.

1825-ci ildə Abşeron yarımadasında beş yerdə-Balaxanı, Sabunçu, Binəqədi, Bibiheybət və Şubanıda quyulardan əl ilə neft çıxarılırdı. Az miqdarda Pirallahı (Artyom) adasında əl ilə işləyən dayaz neft quyuları qazmağa başladılar.

1848-ci ildə rus mühəndisi Semyonov Azərbaycan torpağında dünyada ilk neft quyusu qazmışdı. 1871-ci ildən əl qazması burğu qazma üsulu ilə əvəz edilir. Bununla da get-gedə qazılan quyuların sayı və dərinliyi xeyli artır.

Həsən bəy Zərdabi "Əkinçi" qəzetinin 1877-ci il 1 yanvar nömrəsində çəlləklə neft daşıyanlar barədə yazırdı: "Balaxanıdan zavodlara arabaçılar, 7-8 verst yoldur, pudu bir şahıdan - beş köpükdən neft daşıyıb bol pul qazanırlar".

Bakıda milyonçu çox idi, bəzilərinin adı və sədası bütün dünyaya yayılmışdır. Bakı milyonçularını iki dəstəyə bölmək olardı: birinci "neft milyonçuları", ikincilər isə "sandıq milyonçuları", yəni pulu sandıqda üst-üstə yığıb, yüksək faizlə sələm almaq, malı ucuz alıb baha satmaqla varlananlar.

Bakı nefti təkcə Azərbaycanın yox, bütün Qafqazın dirçəlməsinə güclü təkan verir. Bakı şəhərində 1830-cu ildən etibarən bir çox xeyriyyəçi milyonçular Azərbaycanın hərtərəfli inkişafı naminə, mədəniyyət sahəsində, incəsənət aləmində, xalqımızın maariflənməsində çox böyük işlər görmüşlər.

Bütün müsəlman aləmində tanınmış xeyriyyəçi milyonçu Hacı Zeynalabdin Tağıyevi Bakıdakı müsəlman, rus, digər millətlərdən olan və yəhudi cəmiyyəti xeyriyyəçilərinin hamısı özlərinə fəxri sədr seçmişdilər.

Bakı şəhərində Hacı Zeynalabdin Tağıyevdən başqa, Ağa Musa Nağıyev, Nobel qardaşları, Murtuza Muxtarov, Şəmsi Əsədullayev, Səlimov, İsabəy Hacınski, Hacı Dadaşov, Mayılov və başqaları fəaliyyət göstərirdilər.

Bakı milyonçularından biri də Ağa Musa Nağıyev idi. Var-dövlətdə o, Hacıdan geri qalmırdı. Hətta üstün idi. 1842-ci ildə Biləcəri qəsəbəsində anadan olmuş, uşaqlıq illərini orada keçirmiş və sonra Bakıya köçmüşdür.

Ağa Musa cavanlıqda hambal imiş, dalında palan ona - buna biri üç qəpiyə, beş qəpiyə şələ daşıyarmış. Sonralar neft hesabına milyonçu olmuşdur.

Şəhərdə həm çoxlu mülk tikdirmiş, həm də yenisini almışdır. O, Bakıda 98 əzəmətli bina tikdirməklə qalmamış, həm də, eyni zamanda neçə-neçə gəmiyə sahiblik etmişdir.

Ağa Musa Nağıyev Bakıda keçmiş sovetlər zamanı "Semaşko" adlanan (hal-hazırda Musa Nağıyevin adını daşıyır) xəstəxana binasını, F. Əfəndiyev adını daşıyan xəstəxananı, indiki İqtisadiyyat Universitetinin binasını (o zamanlar bu bina oğlanların gimnaziyası binası idi) tikdirmişdir.

Bakı şəhərində bir erməni o zaman üçün ən yüksək 7 mərtəbəli əzəmətli bir bina tikdirmişdir. Bu bina "İçəri şəhər " metrosu ilə üzbəüz yerləşir. Erməni binanı satmaq fikrinə düşür. Ağa Musa Nağıyev bu binanı alır.

Ağa Musa Nağıyev Qasım bəy məscidinin arxasında Qasım İsmayılov küçəsi ilə L. Tolstoy küçəsinin tinindəki ikimərtəbəli binada yaşayırdı.

Musa, oğlu Ağa İsmayılın şərəfinə "İsmayılıyyə" binasını tikdirir. Bina 1912-ci ildə istifadəyə verilmişdir. "İsmayılıyyə" binasında konsertlər, tamaşalar, iclaslar, yığıncaqlar keçirilirdi. Bina xeyriyyə xarakteri daşıyırdı. Ağa Musa Nağıyev tədbirlərdən yığılan pulları yoxsullara paylayırdı.

1918-ci ildə ermənilər Bakıya soxulurlar. Qarşılarına çıxan müsəlmanları qırırdılar. O dövrdə "İsmayılıyyə " binasında xeyriyyə cəmiyyətinin arxivi yerləşirdi. 1918-ci ildə ermənilər "İsmayılıyyə" binasını ələ keçirirlər. Binanı və xeyriyyə cəmiyyətinin arxivini yandırırlar.

Qoçu Nəcəfqulu Ağa Musa Nağıyevin qoruyucusu idi. Vuruş zamanı qoçu Nəcəfqulu bir neçə erməninin öldürmüşdür.

Ağa Musa Nağıyev "İsmayılıyyə" binasının altındakı anbardan Qız qalasına kimi yeraltı yol çəkdirmişdir. Bakıda ermənilər 1918-ci ildə müsəlmanları qırdıqları zaman Musa bizimkiləri həmin yolla Qız qalasına aparıb orada gizlədirdi.

İndiki Sabir meydanı o zamanlar "İsmayılıyyə" meydanı adlanırdı. Həmin meydanda 1918-20-ci illərdə Məmməd Əmin Rəsulzadə xalqın önündə çıxışlar etmişdir. "Yüksələn bayraq bir daha enməz" sözlərini bu binada çıxış edərkən söyləmişdir.

Stalin Bakıda olduğu zaman "İsmayılıyyə" binasını bəyənmiş və binadan istifadə etmişdir. Stalin Sovet Hökumətinin başçısı olduğu zaman Bakı xeyriyyəçi milyonçularının pullarını rekirdlər vasitəsilə əldə edib Moskvaya gətizdirirdi.

1919-cu ildə ermənilər Tağıyevin tikdirdiyi Qızlar gimnaziyası binasından "İsmayılıyyə" binasına bombalar atırdılar.

Ağa Musa Nağıyev bu hadisəyə baxıb deyirdi: "Binaya dəyən güllələr elə bil ki, oğlum İsmayılın ürəyinə dəyib, ordan çıxaraq mənim ürəyimə dəyir". Bundan sonra o ürək xəstəliyinə tutulur.

1919-cu ildə 70 yaşında ikən Ağa vəfat edir. Onu indiki Şəhidlər Xiyabanında dəfn edirlər. 1931-ci ildə orada Kirovun heykəli qoyularkən Ağa Musanın qardaşına deyirlər ki, meyidi buradan çıxarmalısan. Qardaşı Musanın sümüklərini bir yeşiyə yığıb evində saxlayır. Mollalar ona deyirlər ki, yeşiyi evdə saxlamaq günahdır. Bu səbəbdən qardaşı 1932-ci ildə Musanın sümüklərini Biləcəridə basdırır.

Biləcəridə Musanın dəfn olunduğu yerdə dəmir yolu salmalı olurlar. Bir çox meyidlərlə bərabər, Ağa Musanın da meyidi çıxarılıb dağ üstə dəfn olunur.

"İsmayılıyyə" binasında oğlu İsmayılın bürüncdən hazırlanmış büstü və Fransadan gətirilmiş əzəmətli qızıl bir saat var idi. Saatın rəqəmləri, əqrəbləri və işləmə mexanizmi qızıldan hazırlanmışdır. Sovetlər zamanı Ağamalıoğlu saatı oğurlayıb, qızıllarını əridib satır.

Bolşeviklər İsmayılın büstünü sındırıb, binanın quyusuna atıb, kəlləsi ilə futbol oynayıblar. 1921-ci ildə "İsmayılıyyə" binasında Komissarlar Soveti və Torpaq Komitəsi məskunlaşmışdır.

1945-ci ildə Milli Elmlər Akademiyası bu binada fəaliyyətə başlamışdır. Hal-hazırda binada Elmlər Akademiyasının rəyasət heyəti yerləşir. Gələcək nəsillər dünənin və bu günün maddi və mənəvi körpüsü üstündən keçib gedəcəklər, bunların hamısı birlikdə böyük vətəndaşlıq məktəbidir.

**Azadlıq və müstəqillik əldə etdikdən sonra, qoca Şərqin qapısı, Odlar yurdu Azərbaycanın paytaxtı, əfsanəvi, tükənməz sərvət xəzinəsi qədim Bakının tarixində yeni, xoşbəxt bir dövr başlanmışdır.**

**Arif RƏHİMOV,**
***ADMİU-nun tətbiqi kulturologiya kafedrasının baş müəllimi***

**Ədəbiyyat**

1. ASE, VII c. B. 1983.
2. ASE, IX c. B. 1986.
3. Azərbaycan tarixi. B. 2009.